# Ölkəmiz qlobal problemlərin həllinə töhfələr verir

**COP** - *İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası insanın iqlim mühitinə təhlükəli müdaxiləsinin qarşısını almaq məqsədilə 1992-ci ilin iyununda Rio-de-Janeyro şəhərində keçirilmiş Yer Sammitində imzalanmış sazişdir. COP (Conference of Parties) abreviaturunun ingilis dilindən tərcüməsi Tərəflər Konfransı deməkdir. Tərəflərin Konfransı İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icrasına nəzarət edən ali qərarverici orqandır. Bu Konvensiyaya üzv olan 190-dan çox ölkə var.*

*Ötən il dekabrın 11-də Dubayda COP28-in plenar iclasında COP29-un bu il Azərbaycanda keçirilməsi haqqında qərar qəbul olunub.*

**COP29**

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası**



**Bəşəriyyətin ən böyük problemlərindən biri yanacaq ehtiyatlarının (neft, qaz, kömür, odun) yandırılması nəticəsində yaranan iqlim dəyişikliyidir. Bu ehtiyatlar yandırılan zaman ayrılan karbon oksid (karbon qazı) istixana effekti yaradır və Yer səthinin temperaturunu artırır. Nəzəri cəhətdən bu məsələnin həlli çox sadədir: bəşəriyyət günəşin, küləyin və çayların axar sularının enerjisindən istifadəyə keçməlidir. Çətinlik ondan ibarətdir ki, qlobal enerjinin demək olar ki, 80 faizi yanan resursların istifadəsinə əsaslanır. Məhz bu problemi həll etmək üçün 1995-ci ildən hər il BMT-nin İqlim Konfransı (COP) keçirilir. Bakıda keçiriləcək COP29 mötəbər tədbir olaraq yadda qalacaq. Belə ki, Azərbaycana on minlərlə siyasətçi, alim və ictimai xadimin gələcəyi gözlənilir. İlkin məlumatlara görə, bu müddət ərzində ölkəmizdə təxminən 70-80 min xarici qonaq olacaq. İki həftə ərzində Bakı, sözün həqiqi mənasında, dünyanın mərkəzinə çevriləcək.**

COP-29-un Bakıda keçirilməsi Azərbaycanın dünya miqyasında nüfuzunu daha da artıracaq, ölkəmiz qlobal problemlərin həllində öz əhəmiyyətini bəyan etmək imkanı qazanacaq.

35 il əvvəl təsəvvür etmək belə çətin idi ki, vaxt gələcək, dünya ölkələrinin dövlət başçılarının iqlim dəyişmələrinə həsr olunmuş ən mühüm qlobal forumu Azərbaycanda keçiriləcək. Həmin vaxt respublika müstəqillik, dövlətçiliyi və ərazi bütövlüyünü qoruyub saxlamaq uğrunda mübarizə aparırdı.

Qeyd edək ki, Ümummilli Lider Heydər Əliyev müasir Azərbaycan siyasətinin fenomenidir. Fenomen olmaq öz xalqının mənafeyi, ölkəsinin rifahı və gələcəyi naminə çalışdığını sübut etməkdir.

İntellektual və mənəvi keyfiyyətləri ilə seçilən Heydər Əliyev keçmiş Sovet İttifaqının rəhbərlərindən nəzərəçarpacaq dərəcədə fərqlənirdi. O, səriştəsi, məsuliyyəti və yüksək insani keyfiyyətləri sayəsində həm Azərbaycan xalqının, həm də keçmiş Sovet İttifaqının digər xalqlarının yaddaşında silinməz izlər qoyub. Ulu Öndər nikbin həyat mövqeyi, yüksək humanist idealları, ictimai hadisələrə qərəzsiz qiymət verməsi ilə seçilirdi. Onun fəaliyyəti müxtəlif faktların hərtərəfli təhlilinə və siyasi reallığı dərindən dərk etməyə əsaslanırdı. O, seçdiyi yolun düzgün olmasına əmin idi və bu əminlik cəmiyyətin geniş təbəqələrinə də sirayət edirdi.

Dahi şəxsiyyət Heydər Əliyevin təfəkkür tərzinin kreativlik, gələcəyə istiqamətlənmək kimi səciyyəvi xüsusiyyətləri əsasən məqsədyönlü tərbiyə və çoxşaxəli təhsil sayəsində formalaşmışdı. Ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan cəmiyyətinə məhz Heydər Əliyevin bu keyfiyyətləri lazım idi ki, həmin vaxt Azərbaycanın ictimai şüurunda hökmranlıq edən "Qarabağ sindromu" onun rəhbərliyi ilə aradan qalxsın. Bu sindrom 2020-ci ildə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ordusunun İkinci Qarabağ müharibəsində misilsiz qələbəsi sayəsində aradan qalxdı.

Ulu Öndər erməni millətçiliyinin tarixini yaxşı bilirdi. O, başa düşürdü ki, istər əvvəlki, istərsə də indiki erməni faşistlərinin bir əsas məqsədi var: türk dünyasını parçalayıb məhv etmək.

Uzaqgörən siyasi xadim Heydər Əliyevin 90-cı illərin əvvəllərində Azərbaycanı düşdüyü ictimai-siyasi və iqtisadi vəziyyətdən çıxarmağa və uğurlu hərbi strategiyasını müəyyən etməyə nail olması xalqın yaddaşında əbədi iz qoyan çox mühüm tarixi hadisədir.



1994-cü ilin mayında Azərbaycanla Ermənistan arasında atəşkəs haqqında razılıq əldə edildi. BMT Təhlükəsizlik Şurası işğal olunmuş Dağlıq Qarabağın və ona bitişik ərazilərin azad edilməsi ilə bağlı dörd qətnamə qəbul etdi. ATƏT-in keçmiş Minsk qrupunun himayəsi altında sülh danışıqları başlandı. Münaqişənin sülh yolu ilə həllini tapmamasının yeganə səbəbi Ermənistan rəhbərliyinin aqressiv xarakteri və Qarabağ separatçılarının status-kvonun saxlanması barədə qərarı olub.

2020-ci ildə Azərbaycan təkcə Qarabağ separatçılarını və erməni qoşunlarını deyil, həm də mifik "dənizdən dənizə Böyük Ermənistan" yaratmaq istəyən dünya erməni birliyini məğlub etdi.

Prezident İlham Əliyevin aydın və dəqiq mövqeyi, hərtərəfli düşünülmüş, balanslaşdırılmış daxili və xarici siyasəti ölkənin bütün imkanlarını Qələbə üçün səfərbər etməyə imkan verdi.

Vətən müharibəsində qazanılan parlaq qələbə, eləcə də sonradan uğurla həyata keçirilən antiterror tədbirləri sayəsində Azərbaycan işğal olunmuş torpaqlarını azad edərək, öz suverenliyini tamamilə bərpa etdi.

Qarabağın işğaldan azad edilməsi, yerli əhalinin öz doğma torpaqlarına qayıtması - bunlar həm Azərbaycan xalqının, həm də ölkə rəhbərliyinin son 30 ildəki arzularıdır. Hazırda işğaldan azad edilmiş ərazilərdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyası sürətlə həyata keçirilir, aqrar-sənaye klasterləri formalaşdırılır.

Müxtəlif sənaye sahələrinin, aqrar komplekslərinin, təhsil və mədəniyyət ocaqlarının təməli qoyulur. Bu regionların sosial-iqtisadi inkişafı, insanların məşğulluğunun təmin edilməsi, onların fiziki və psixoloji sağlamlığının yaxşılaşdırılması ölkə rəhbərliyinin fəaliyyətinin prioritet istiqamətlərindəndir. Bütün bunlar, şübhəsiz ki, vətəndaşların rahat yaşaması üçün şərait yaradacaq.

Prezident İlham Əliyev müharibədən sonra Qarabağda görülən işləri belə dəyərləndirib: "Deyə bilərəm ki, burada görülən işlər azad edilmiş torpaqlara gələn hər bir qərəzsiz xarici qonağı valeh edir. Çünki bu dərəcədə dağıntılardan sonra bu sürətlə bərpa işlərinin aparılması, yəqin ki, tarixdə görünməmiş bir hadisədir".

**Cəlil XƏLİLOV,**
**polkovnik, Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini.**